# Balakəndə Xurma festivalı

**Balakənin ənənəvi meyvə istehsalı olan xurmaçılığın inkişafını təşviq etmək, bu məhsulun və ondan hazırlanan nemətlərin geniş tanıdılması məqsədilə rayonda 5-ci dəfə Xurma festivalı keçirilib.**





Balakənlilər tarixən məhsul yığımını, məhsul bolluğunu böyük sevinc hissi ilə, şənliklər keçirərək qeyd ediblər. 2017-ci ildə rayonda ilk dəfə Xurma festivalı keçirilməklə gözəl ənənənin təməli qoyulub.

Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Kənd Təsərrüfatı və Mədəniyyət nazirliklərinin, Aqrar İnnovasiya Mərkəzinin, "Balxurma" MMC-nin dəstəyi ilə gerçəkləşən festival ümumrayon şənliyinə çevrilib. Heydər Əliyev adına mədəniyyət və istirahət parkında keçirilən festivalın iştirakçıları şərbət, çörək və meyvələrdən hazırlanmış milli xonça ilə qarşılanıblar. Sonra təntənədən yadigar olaraq parkın ərazisində xurma ağacları əkilib.

Sonra iştirakçılar bayramsayağı bəzədilmiş parkda xurmadan hazırlanmış kulinariya məhsullarına və kompozisiyalara, kənd təsərrüfatı məhsullarının sərgilərinə baxıblar. Xurma, alma, armud, qoz, fındıq və digər meyvələr, "Azəryem Sənaye" MMC-nin, konserv zavodunun istehsal etdiyi müxtəlif çeşiddə məhsullar, kənd təsərrüfatı məhsullarının satış yarmarkası rayonun bar-bərəkət mənzərəsini əks etdirib. Qonaqlar Balakən mətbəxinin nümunələrindən dadıblar. Folklor kollektivlərinin çıxışları festivala yüksək təntənə gətirib, adamlarda xoş əhval yaradıb.

Festivalın açılışında Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev bağbanları məhsul bayramı münasibətilə təbrik edərək bildirib ki, xurma festivalının keçirilməsi önəmli ictimai-mədəni layihədir. Belə təntənələr kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafını stimullaşdırır. Festival yerli məhsulların xarici bazarlarda satışının təşviqi, milli adət-ənənələrin, qonaqpərvərliyin, yerli turizm imkanlarının tanıdılması baxımından da böyük əhəmiyyət daşıyır.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov və Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası İdarə Heyətinin sədri Qadir Yusifov bu gün ölkəmizdə qeyri-neft məhsulları üzrə ixrac imkanlarının artırılmasında meyvəçiliyin mühüm rol oynadığını, Azərbaycandan xarici bazarlara çıxarılan məhsullar sırasında xurmanın xüsusi yer tutduğunu bildiriblər.

Festivalı respublikanın və yerli incəsənət ustalarının konsert proqramı ilə başa çatıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

Xalq qəzeti .- 2025.- 30 oktyabr (№232).- S.14.